# AZƏRBAYCAN RESPUBLİKASI
# BAKI ŞƏHƏR
# İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI

## SƏRƏNCAM

292 №  "26" 07 2013-cü il

### Bakı şəhərində yeraltı və yerüstü avtomobil dayanacaqları haqqında

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı sahəsində qəbul edilmiş dövlət proqramları çərçivəsində həyata keçirilən məqsədyönlü proqramların icrası sayəsində Bakı şəhəri sürətlə inkişaf etmiş, yol təsərrüfatının, şəhər nəqliyyatının işinin yaxşılaşdırılması, sosial infrastruktur sahəsində xidmət səviyyəsinin yüksəldilməsi üzrə layihələr həyata keçirilmiş, nəticədə şəhər abadlaşmış, tikinti işləri geniş vüsət almış, iş yerləri açılmışdır.

Bakı şəhərinin inkişafının sürətlənməsi, həyat səviyyəsinin daha da yüksəldilməsi istiqamətində görülmüş işləri davam etdirərək Bakı şəhərinin ayrı-ayrı ərazilərində, o cümlədən H.Əliyev adına Saray ilə Füzuli meydanı arasında salınmış mərkəzi parkın 4500 yerlik müasir tipli yeraltı avtomobil dayanacağı tez bir zamanda inşa edilərək əhalinin istifadəsinə verilmişdir.

Bakı şəhərinin mərkəzi hissəsində yaranan nəqliyyat sıxlığı probleminin aradan qaldırılması, qanunsuz durma və parklanma sisteminin ləğv edilməsi məqsədilə:

1. Şəhərin Neftçilər, G.Səfərəliyeva, Ü.Hacıbəyov (Hökümət evinin ətrafı), İstiqlaliyyət, (Gənclər meydanı, Qoşa Qala Qapısı) Əziz Əliyev, Azərbaycan, Ə.Cavad, Bül-bül, R.Beybudov, Azadlıq, 28 May, Xəqani, Xəqani adına bağın ətrafı (keçmiş «9 Yanvar» bağı) Nizami, Füzuli dairəsi, Ş.Qurbanov, Nizami metrostansiyasının qarşısındakı C.Cabbarlı və Z.Əhmədbəyov küçələrinin kəsişməsi Ə.Hüseynzadə küçəsinə qədər olan hissə, Ş.Bədəlbəyli, S.Vurğun, Füzuli, M.A.Əliyev küçə və prospektlərində avtomobillərin dayanma və parklanması qadağan edilsin;

2. Bakı şəhərinin mərkəzi hissəsində son illərdə inşa edilib istifadəyə verilmiş yeraltı-yerütsü avtomobil dayanacaqlarının yaxın hissələrində avtomobillərin dayanması və parklanması qadağan edilsin.

3. Yolun hərəkət hissəsi müvafiq icazə olmadan avtomobil dayanacağına çevirərək, qanunsuz gəlir əldə edən fiziki və hüquqi şəxslər müəyyən edilərək barələrində ciddi tədbirlər görülsün.

4. Bakı Şəhər Baş Polis İdarəsinə (R.Abbasov) müraciət edilsin ki, sərəncamın icrasına nəzarəti gücləndirmək məqsədilə aidiyyəti üzrə göstərişlər versin.

5. Sərəncamın icrasına nəzarəti öz üzərimə götürürəm.

**H.ABUTALIBOV**

Azərbaycan Respublikası Bakı şəhər İcra Hakimiyyəti Başçısının Aparatı • Sənədləri rəsmiləşdirmə və protokollaşdırma sektoru

ƏSLİ İLƏ DÜZDÜR